# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №14 (54) • 06.06.2011

AzadliqRadiosu.az

Daha 2 ay həbsdə qalanların sayı səkkizə çatdı — səh.2

Rüşvətə görə 71 polis əməkdaşı işdən qovulub — səh.4

«Məni tutub döydülər» — səh.6

Dövlət qulluğuna qəbul üçün yaş senzi tətbiq olunacaq — səh.9

Avropada ən populyar rüşvət növləri — səh.10

Keçmiş səfir Wilson Azərbaycana köməyə gəlir — səh.11

Rəbiyyət Aslanovadan "Molla Nəsrəddin" jurnalına ittihamlar — səh.13

Aksiya - kilsənin içində seks — səh.15

## Ermənistanda gözlənilməz dəyişikliklər



- İqtidarla müxalifət dialoqa başlayır
- Bütün siyasi məhbuslar azad edildi
- İslahatlar başlayacaq

səh.8

## Михаил Горбачев: "Ельцин меня предал"

"Это самое худшее предательство! Вот мы сидим с ним, разговариваем, договариваемся, а потом он уходит и за спиной делает другое. Причем, если бы вы его послушали... Это ведь всегда был разговор секретаря ЦК и регионального политика. А потом он выходил - и делал по- своему. Это был игрок, авантюрист! Талантливый авантюрист..."

səh.7



Qarabağ problemi artıq həll olunmaq üzrədir? — səh.4

Naxçıvan sakini Naxçıvandan qovulub — səh.5

Pərviz Cəbrayılın Milli Kitab Mükafatının qalibi olması istefalar yaratdı — səh.13

# Elnur Məcidli ilə bağlı cinayət işinin icraatı dayandırılıb



Elnur Məcidli

**«BU, İŞİN DONDURULMASIDIR»**

*Dövlət əleyhinə çağırışlarda təqsirləndirilən blogger Elnur Məcidli ilə bağlı cinayət işinin icraatı dayandırılıb. Bu haqda AzadlıqRadiosuna Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov deyib. O, məsələyə aydınlıq da gətirib:* «İşə xitam verilməyib, icraatı dayandırılıb». Amma icraatın niyə dayandırılmasını izah etməyib.

*Elnur Məcidli deyir ki, icraatın dayandırılması müəyyən mənada müsbət addımdır. Amma yetərli deyil:* «Əslində bu, işin dondurulmasıdır. Mən çox istərdim ki, bu işə xitam verilsin. Mən Azərbaycana gəlsəm, bu işi yenidən qaldıra bilərlər. Bu risk var. Ümid edirəm ki, xitam veriləcək».

*Hüquqşünas Erkin Qədirli deyir ki, bəlkə də Elnur Məcidli rəsmən beynəlxalq axtarışa verilməyib. Verilibsə də, İNTERPOL-dan imtina cavabı gəlib. Rədd cavabı niyə gələ bilər:* «İNTERPOL siyasi sifarişlə işləmir. Siyasi səciyyəvi cinayətlərə görə beynəlxalq axtarış müraciətlərinə baxmır».

*Yeri gəlmişkən, İNTERPOL-un saytında axtarışda olanlar siyahısında Elnur Məcidlinin adı yoxdur. Hüquqşünas deyir ki, prokurorluğun açıqlaması tam olmadığı üçün fərziyyələrə yol açır. Yəni siyasi niyyətlə başlamış, siyasi niyyətlə də dayandırılır. Elə Elnur Məcidli də icraatın dayandırılmasını siyasi səbəblə izah edir:* «Bunu həm Azərbaycanda gedən proseslərlə, həm də «Eurovision»dakı qələbəylə izah edirəm. Məncə, bu qələbənin Azərbaycana böyük təsirləri olacaq».

Bu il aprelin 1-də Elnur Məcidli haqda Cinayət Məcəlləsinin 281.1-ci maddəsi ilə cinayət işi başlanıb. O, dövlət əleyhinə açıq çağırışlar etməkdə günahlandırılırdı.

***Şahnaz Bəylərqızı***

# E.Fətullayev: «Yenidən həbsə düşməyə gücüm yoxdur»

*2007-ci ildə müxtəlif ittihamlarla həbsə atılan, prezident İlham Əliyevin ötən həftə verdiyi əfv fərmanıyla azadlığa çıxan "Gündəlik Azərbaycan" qəzetinin baş redaktoru Eynulla Fətullayev bu qəzeti yenidən bərpa etmək istəyir. Fətullayev həbs ediləndən sonra redaktoru olduğu "Gündəlik Azərbaycan" qəzeti də fəaliyyətini dayandırmışdı. "The Washington Post" qəzetinə müsahibə verən Fətullayev deyib ki, Azərbaycanda indi insan haqları sahəsindəki durum daha da pisləşib, amma ümid edir ki, yazılarına görə növbəti dəfə həbsə atılmayacaq. Onun sözlərinə görə, "ölkə tədricən təkpartiyalı siyasi sistemə keçib, iqtidarın sərbəst toplaşma və ifadə azadlığına hücumları da buna sübutdur".*

İndi Fətullayev deyir: "Mən Azərbaycanda qalıb, bir vaxtlar təkcə ölkədə yox, bütün Cənubi Qafqazda populyar olan nəşri yenidən bərpa edə bilərəm. Amma



Eynulla Fətullayev

ümid edirəm ki, mənim şəxsi və peşəkar fəaliyyətim üçün hansısa təminat veriləcək. Çünki burada jurnalistikayla məşğul olmaq məhbəsə atılmaqla nəticələnə bilər, mənimsə buna gücüm yoxdur".

Avropa İnsan Haqları Məhkəməsi ötən il qərar vermişdi k, Eynulla Fətullayevin ədalətli mühakimə hüququ təmin edilməyib, jurnalist həbsdən azad edilməli və ona 25 min avro kompensasiya ödənilməlidir.



2 aprel mitinqindən görüntü

# Daha 2 ay həbsdə qalanların sayı səkkiz oldu

**Müxalifətin 2 aprel mitinqinə görə 2 aylıq həbs olunanlar arasında həbs müddəti daha iki ay artırılanların sayı 8-ə çatdı. Vəkillər isə deyirlər ki, 2 aydır istintaq ortaya elə bir dəlil-sübut qoymayıb ki, həbs edilənləri əlavə 2 ay da həbsdə saxlamağa ehtiyac yaransın.**

*Müsavat Partiyasının Gənclər Təşkilatının sədr müavini Əhəd Məmmədlinin vəkili Yalçın İmanov AzadlıqRadiosuna deyir ki, müdafiə etdiyi şəxs həbsdə saxlandığı iki ay ərzində onunla bağlı hər hansı istintaq hərəkəti aparılmayıb:* «Biz məhkəmədə istintaq tərəfinin həbs müddətinin daha 2 ay artırılması ilə bağlı təqdimatını əsassız saydıq. Axı bu iki ayda ortalığa heç bir dəlil-sübut qoyulmayıbsa, bu adamı daha 2 ay da həbsdə saxlamağın nə adı var? Olmayan bir şeyə əsaslanaraq yenidən həbs müddətinin uzadılmasına ehtiyac yoxdur. Buna baxmayaraq, məhkəmə istintaq tərəfinin vəsatətini təmin elədi».

*Qərardan apelyasiya verəcəklərini deyən Yalçın İmanovun sözlərinə görə, ortada ziddiyyətli məqamlar var. Sabiq müstəntiq Adil İsmayılov hesab edir ki, vəkillərin bütünlükdə cinayət işini görmək imkanı olmadığından indidən «dəlil-sübut» yoxluğundan gileylənməyə dəyməz. Amma əgər vəkillər istintaq bitəndən sonra cinayət işi ilə tanış olan zaman həmin müddətdə istintaq hərəkətlərinin aparılmadığını görsələr, onda hətta bundan Avropa Məhkəməsinə də şikayət edə bilərlər:* "Azərbaycanın da qoşulduğu müvafiq konvensiyada belə bir maddə var: «şəxsin ağlabatan müddətə qədər məhkəmə qarşısına çıxarılması». Artıq bu maddə ilə bağlı Avropa Məhkəməsi Azərbaycanla bağlı qərarlar da çıxarıb".

***Səadət Akifqızı***

# Avropa Məhkəməsinə yeni seçki şikayətləri hazırlanır


İntiqam Əliyev

**2010-cu il 7 noyabr seçkilərində hüquq pozuntuları ilə əlaqədar Avropa Məhkəməsinə 100-dək yeni şikayət hazırlanır. Azərbaycan Avropa Konvensiyasını ratifikasiya etdiyi 2002-ci ildən bəri Avropa Məhkəməsinə 2500-dən çox ərizə göndərilib ki, onların da arasında onlarla seçki şikayəti var.**

*Hüquqşünas İntiqam Əliyev deyir ki, sonuncu parlament seçkisi zamanı qeydiyyat maneəsi, səsvermə günü isə hüquq pozuntuları ilə üzləşən şəxslər artıq yerli məhkəmə instansiyalarını keçiblər və heç birinin də şikayəti təmin olunmayıb. İntiqam Əliyev bir müddət öncə Avropa Məhkəməsinin şikayətini təmin etdiyi, 2005-ci il parlament seçkilərində millət vəkilliyinə namizəd olmuş Nemət Əliyevin işini xatırladır:*

- Avropa Məhkəməsi Nemət Əliyevin işi ilə bağlı bildirdi ki, onun qalib gəlib-gəlmədiyini araşdırmır. Biz onu araşdırırıq ki, Nemət Əliyev seçki pozuntuları ilə bağlı şikayət verib, bu şikayətləri seçki komissiyaları, məhkəmələr obyektiv araşdırıb, ya yox? Biz də aktları təqdim edirik məhkəməyə, ya araşdırmırlar, ya da deyirlər ki, mötəbər mənbə deyil, seçki komissiyalarının izahatı ilə kifayətlənirlər. Biz də bundan şikayətçi düşmüşük.

**HÖKUMƏTİN ÖHDƏLİYİNDƏN SƏS-SƏMİR YOXDUR**

İntiqam Əliyev onu da xatırladır ki, Avropa Məhkəməsi 2005-ci il parlament seçkilərindən şikayətçi düşmüş İsa Qəmbər, Mirmahmud Fəttayev, Fuad Mustafayev və daha 4 nəfər barədə qərarını hökumətin öhdəliyi üzündən saxlayıb.

İntiqam Əliyev deyir, hələ ki, bu öhdəliyin yerinə yetirilməsi ilə bağlı bir yenilik yoxdur, əksinə, 2010-cu il parlament seçkisi zamanı daha çox hüquq pozuntularına yol verilib. Elə Avropa Məhkəməsinə göndəriləcək 100-dən çox şikayət də oxşar məzmundadır.

Şikayətçilərdən biri, AXCP sədrinin müavini Gözəl Bayramlı AzadlıqRadiosuna deyir ki, o, millət vəkilliyinə namizəd kimi bir sıra pozuntularla üzləşib və indi haqqını Avropa Məhkəməsində müdafiə etmək niyyətindədir.

*Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova isə Avropa Məhkəməsinə gedən şikayətlərin təmin olunmayacağını düşünür, deyir ki, beynəlxalq təşkilatlar sonuncu parlament seçkiləri haqda müsbət fikirdədir:*


Rəbiyyət Aslanova

- Azərbaycanda seçkilər çox şəffaf keçib, demokratik keçib. Seçicilərin səsini qazanmaq lazım idi, seçkiyə kölgə salmağa cəhd göstərmək yox.

*- Axı Avropa Məhkəməsi seçki ilə bağlı bəzi şikayətçilərin iddiasını təmin edib və bununla bağlı hökumət öhdəlik götürüb...*

- Yaxşı olar ki, Avropa Məhkəməsi Ermənistanda seçki vaxtı baş verən zorakılığa daha dərin diqqət yetirsin və bu şikayətlərdən Azərbaycana təsir vasitəsi kimi istifadə etməsin.

**«TÖVSİYƏNİ QULAQARDINA VURANDA...»**

Seçki məsələləri üzrə ekspert Hafiz Həsənov isə deyir ki, Avropa Məhkəməsinin qərarlarından sonra yerli məhkəmələr öz qərarlarında əvvəlki səhvləri təkrarlamamalıdırlar, amma təkrarlayırlar. O, hesab edir ki, Avropa Şurası özü də bu barədə düşünməli və sanksiya mexanizminə yenidən baxmalıdır.

***Səadət Akifqızı***

## Bakıda iki «polis» saxlanılıb

Bakıda özlərini polis əməkdaşı kimi təqdim edən iki şəxs tutulub. Bakı Şəhər Baş Polis İdarəsinin məlumatına əsasən, hadisə iyunun 3-ü saat 01:00 radələrində Avtovağzal ərazisində qeydə alınıb. Gədəbəy və Tərtər rayon sakini olan iki nəfər özlərini polis əməkdaşı kimi təqdim ediblər. Onlar iki paytaxt sakininin avtomobilində axtarış apararkən Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıblar. Hər iki şəxs ərazi üzrə 40-cı polis bölməsinə təhvil verilib. Araşdırma aparılır.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Yaralanmış Yəmən prezidenti Səudiyyə Ərəbistanına gedib**


**Belarus hər yerdən borc istəyir**


**Gəncə qiyamını doğuran səbəblər nə idi?**


**Sözəbaxan Qadınlar Klubu**

# Qarabağ problemi artıq həll olunmaq üzrədir?


Soçi, 5 mart 2011

**BAKIDA NÖVBƏTİ QARABAĞ ÜMİDİ...**

*Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlara vasitəçilik edən ATƏT-in Minsk Qrupuna həmsədrlik edən Rusiya, ABŞ və Fransa prezidentlərinin ötən həftə verdikləri birgə bəyanatları bu məsələni yenidən gündəmə gətirib. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da bəyan edib ki, iyunun ikinci yarısında Dağlıq Qarabağ nizamlanması ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya prezidentlər və xarici işlər nazirləri səviyyəsində görüş keçirəcəklər:* "Burada müəyyən sirr olan məsələlər var. Ümumi istiqamət onu göstərir ki, Dağlıq Qarabağ problemi artıq həll olunmaq üzrədir"(APA).

28 May - Respublika Günü münasibətilə rəsmi qəbulda çıxışı zamanı prezident İlham Əliyev deyib ki, "son aylar bu istiqamətdə ümidləri möhkəmləndirən amillər kifayət qədər çox olub. İlk dəfə olaraq Minsk Qrupunun həmsədr ölkələri tərəfindən status-kvonun dəyişdirilməsi ilə bağlı bəyanatlar verilməyə başlanılıb. Yəni status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".

**NƏ BAŞ VERİR?**

*Münaqişənin həlli məsələsinin yenidən müzakirə mövzusuna çevrilməsinə əvvəlkilərdən fərqli səbəb var, yoxsa yenə də hər şey ənənəvi bəyanatlar, hansısa formal sənədlərin imzalanması ilə yekunlaşacaq?*



Arif Yunus

Konfliktoloq Arif Yunus:

- Sadəcə olaraq, ilk növbədə ABŞ tərəfindən belə səylər göstərilir. Amma bu o demək deyil ki, həqiqətən Qarabağ məsələsi yaxın vaxtlarda həll olunacaq. Bundan öncə də uzun illər görüşlər olub. Kimsə nəsə söz verib, kimsə nəyəsə inandırıb. Amma nəticə göz qabağındadır. İndi də belə olacaq. Məsələnin belə qabarıq şəkildə yenidən gündəmə gəlməsinin səbəbi, sadəcə, odur ki, ABŞ regiondakı qaynar nöqtələrlə bağlı hansısa bir addım atmaq, nəsə etmək istəyir.

***İlqar Rəsul***

# ABŞ səfiri: «Obamanın Kazan görüşünə olan ümidlərini bölüşürəm»

*«Kazan görüşündə baza prinsipləri üzrə razılaşma əldə ediləcəyinə dair prezident Barak Obamanın ümidlərini bölüşürəm». Bu açıqlamanı «APA»ya ABŞ səfiri Metyu Brayza verib. Səfir bildirib ki, prezident Obama artıq görüşdən gözlədiyi nəticələri Dovil bəyanatında qeyd edib: «Bəyanatda bildirilir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına alternativ yoxdur. Həmsədr ölkələr Əliyev və Sarkisyanı Kazan görüşündən yararlanaraq baza prinsiplərinə dair razılaşma əldə etməyə çağırıblar. Mən, əlbəttə ki, bu ümidləri bölüşürəm və tam şəkildə əmin olmaqda davam edirəm ki, münaqişənin hərbi yolla həlli mümkünsüzdür».*

İyunun 25-də Tatarıstanın paytaxtı Kazanda Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin üçtərəfli görüşü olacaq.

**AzadliqRadiosu.az saytında daimi rubrika:**




# Rüşvətə görə 71 polis əməkdaşı işdən qovulub

**Daxili İşlər Nazirliyinin məlumata görə, son bir il üç ayda vətəndaşlardan pul almağa cəhd göstərdiklərinə görə 26 fakt üzrə 71 əməkdaş xidmətdən xaric edilib, 11 nəfər tutduğu vəzifədən azad olunub. Rəsmi məlumatda o da qeyd edilir ki, həmin ittihamla 22 polis əməkdaşı cəzalandırılıb, 8 nəfər haqqında sənədlər isə hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib.**

İyunun 1-də Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında nazir Ramil Usubov deyib ki, son 3 ildə keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə mülkiyyət əleyhinə 1000-dən çox cinayət törətmiş 497 cinayətkar qrup və dəstə zərərsizləşdirilib.

Nazirlikdən AzadlıqRadiosuna verilən məlumata görə, kollegiya iclasında o da bildirilib ki, son 1 il 3 ayda qrup halında 1300-dən çox mülkiyyət əleyhinə cinayət törətmiş 1000-dən çox şəxs müəyyən olunub, o cümlədən axtarışda olan 763 nəfər tutulub.

# Nazir: «Dövlət büdcəsinin artırılması inflyasiya riskləri yaradır»

**Azərbaycanın 2011-ci il dövlət büdcəsinin xərclərinin artırılması müəyyən inflyasiya riskləri yaradır. Bunu «APA»ya Azərbaycanın Maliyyə naziri Samir Şərifov bildirib. «Azərbaycan Mərkəzi Bankı ilə birlikdə inflyasiya meyillərini, inflyasiyanı cilovlamaq istiqamətində əməli tədbirlər keçirəcəyik ki, inflyasiyanın səviyyəsi yüksək olmasın».**

2011-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycanda inflyasiyanın səviyyəsi 9% təşkil edib. Mayın 27-də parlament tərəfindən qəbul olunan 2011-ci il dövlət büdcəsinə dəyişikliklərə əsasən, gəlirlər 29% və ya 15 milyard 554.2 mln. manata qədər, xərclər isə 25% və ya 15 milyard 941.2 mln. manatadək artırılıb.

# Naxçıvan sakini Naxçıvandan qovulub

## İndi Bakıda olan Nehrəm sakini kənddəki etiraz aksiyasının təşkilatçısı idi



Arxiv şəkil, Nehrəmdə keçmiş etiraz aksiyalarından biri

### «DÜNYANIN HEÇ BİR YERİNDƏ BELƏ YAŞAYIŞ YOXDUR»

*«Yonca əkməyə icazə verilmir. Yoncanı ancaq bəzi adamlar əkə bilər. Əkinə getməsin deyə, camaatın motosikletlərini, maşınlarını əllərindən alıb doğrayırlar. Nehrəmdə bu dəqiqə yaşamaq çox çətindir. Nehrəmdə gülən üz yoxdur».*

Bunları deyən Rzaqulu Həsənov Naxçıvanın Babək rayonunun Nehrəm kəndindəndir. İndi Bakıdadır. Bildirir ki, mayın 31-də onu Naxçıvandan məcburi çıxarıblar, başqa sözlə, deportasiya ediblər. Həmin gün kənd sakinləri işsizlik və sosial problemlərinin həlli tələbi ilə bağlı etiraz aksiyası keçirməyi planlayırmış. Rzaqulu Həsənov həm də kəndin problemlərinin həll olunması tələbi ilə bağlı bu günlərdə yaradılmış Müqavimət Hərəkatının Təşkilat Komitəsinin sədridir. Dediyinə görə, aksiyada iştirak edə bilməsin deyə, onu aldadaraq Naxçıvandan uzaqlaşdırıblar, hətta geri dönməsin deyə, hədə-qorxu da gəliblər:

-Mənə dedilər ki, qaldığım evə polis girib, gəldim ora. Gördüm ki, mülki formada heç tanımadığım adamlardır. Məni gətirib Culfa gömrüyündən keçirdilər. Qayıdacağım təqdirdə insanlara əziyyət verəcəklərini dedilər. Mən də qarşıma məqsəd qoydum ki, Bakıya gəlim, prezidentə, Amerika, Avropa səfirliklərinə müraciət edim. Mənə 2 nəfər ayırsınlar, biri xarici vətəndaş olsun. Getsin, yerində görsünlər ki, biz necə yaşayırıq. Dünyanın heç bir yerində elə yaşayış yoxdur.

### NARINCI OT DA İSTƏDİYİ YERDƏ BİTMİR

- Stadionu söküblər, parkımızı söküblər, kənd sakinlərinə məxsus dükanları söküblər. Kənddə su problemi var. Yonca əkməyə icazə verilmir. Yoncanı ancaq bəzi adamlar əkə bilər. Əkinə getməsin deyə, camaatın motosikletlərini, maşınlarını əllərindən alıb, doğrayırlar. Bir şeyə də məəttəl qalmışam. «Eşşəkturpu» deyilən bir ot var. Kimin əkinində bu otdan cücərirsə biçirlər. Narıncı inqilabın rəmzinə oxşayır deyə.

Rzaqulu Həsənov deyir ki, nə Nehrəmin problemlərindən, nə də özünün deportasiya olunmasından hələ ki, heç kəsə rəsmi şikayət etməyib. Öz dili ilə desək, buna lüzum da görmür, deyir Naxçıvanda şikayətə məhəl qoyan da yoxdur. İndi məqsədi mətbuat vasitəsilə prezidentə və beynəlxalq təşkilatlara, səfirliklərə müraciət etməkdir. Deyir ki, nəyin bahasına başa gəlsə də, o yenidən Nehrəmə qayıdacaq və problemlərin həllinə çalışacaq.

### «POLİS BELƏ ADAM TANIMIR»


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 07991482
Soyadı
HƏSƏNOV
Adı
RZAQULU
Atasının adı
HÜSEYNQULU OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,NAX MR,NAX ray.,
NEHRƏM K.,16.06.1957
I<AZEHASANOV<<RZAGULU<<<<<<<<<<<<<<<<
07991482<2AZE5706167M<<<<<<00VBKLVR7
Ailə vəziyyəti Evli
Hərbi vəzifəsi h/M
Qan qrupu B(III)RH+
Gözlərinin rəngi Qəhvəyi
Cinsi K
Yaşayış yeri NAX MR,BABƏK ray.,NEHRƏM K.
Boyu 167
Vəsiqəni verən orqanın adı BABƏK RPŞ
Vəsiqənin verilmə tarixi 23.02.2011
Vəsiqə sahibinin imzası
Səlahiyyətli imza
Etibarlıdır

Rzaqulu Həsənovun şəxsiyyət vəsiqəsi

Babək Rayon İcra Hakimiyyəti və Naxçıvanın Bakıdakı nümayəndəliyi isə bütün bu deyilənlərlə razılaşmırlar. Bildirilir ki, Nehrəmdə nə problem var, nə də problemdən əziyyət çəkən. Rzaqulu Həsənovun deportasiyasına gəlincə, Babək Rayon Polis İdarəsindən bildirirlər ki, onu orada heç kim tanımır, polis də belə bir adam tanımır.

Nehrəm Müqavimət Hərəkatının Təşkilat Komitəsinin digər üzvü Yasin Hüseynov iyunun 1-də AzadlıqRadiosuna demişdi ki, Rzaqulu Həsənovun kənddən çıxarılmasından əlavə, komitənin daha bir üzvü polisə çağırılıb, incidilib.

### NEHRƏMDƏ NƏ BAŞ VERİR?

Nehrəm sakinləri mayın 31-də etiraz aksiyası keçiriblər, işsizlik və digər sosial problemlərin həllini tələb ediblər. Aksiya iştirakçılarının dediyinə görə, onlar tələblərini səsləndirə biliblər, polis təzyiqi ilə üzləşməyiblər. Amma Daxili İşlər Nazirliyindən AzadlıqRadiosuna bildiriblər ki, Nehrəmdə həmin gün heç bir aksiya olmayıb.

Deyilənlərlə bağlı Nehrəm kəndinin icra nümayəndəsi Təvəkkül Ələkbərovun mövqeyini öyrənmək istədik. Amma sualımıza cavab vermədən telefonun dəstəyini asdı. Babək Rayon İcra Hakimiyyətinin özünü təqdim etməyən əməkdaşı isə Nehrəmlə bağlı deyilənlərin yalan olduğunu bildirdi.

- Yalan şeylərdir hamısı, mən elə şey eşitməmişəm.

Naxçıvanın Bakıdakı daimi nümayəndəsi Həsən Hacıyev də deyir ki, Nehrəmdə nə sosial problem var, nə də bu problemlərdən şikayəçi olanlar.

- Mən maraqlanmışam, belə şeylər yoxdur. İndi kimsə nəsə deyirsə, onun öz vicdanına qalır bu. Bundan əvvəl də Naxçıvandakı «hadisələr»i – Püsyan, Bənənyar kəndindəki məsələləri heç nədən şişirdib yazırdılar.

### MƏSƏLƏ ARAŞDIRILACAQ

Həsən Hacıyev Rzaqulu Həsənov adlı Nehrəm kənd sakininin məcburi deportasiya olunmasından isə xəbərsiz olduğunu bildirdi, dedi ki, bu məsələni araşdıracaq.

Nehrəmdən olan Təşkilat Komitəsinin üzvlərinin polis təzyiqinə məruz qalmalarına gəlincə isə, məsələ ilə bağlı Babək Rayon Polis İdarəsindən mövqe öyrənmək cəhdimiz baş tutmadı.

***Yafəz Əkrəmoğlu, Ülkər Akifqızı***

# «Məni tutub döydülər»

**Şamaxının Sabirli kənd sakini Tahir Quliyev AzadlıqRadiosunun «Qaynar xətt»inə Çarhan kənd bələdiyyə sədrinin müavini və Sabirli kəndi üzrə nümayəndəsi olan Cavanşir Bağırovdan şikayət edib. Tahir Quliyevin sözlərinə görə, bələdiyyə sədrinin müavini öz ailə üzvləri ilə birlikdə onu möhkəm döyüblər. Elə döyülüb ki, xəstəxanalıq olub. Kəndli deyir ki, döyülməsinə səbəb bələdiyyə nümayəndəsinin ailə üzvünün ona məxsus əkin sahəsində heyvan otarması olub:**

### «ŞİL-KÜT HALDA XƏSTƏXANAYA DÜŞDÜM»

- Maşının qarşısını kəsdilər, yerə düşən kimi tökülüşdülər üstümə, məni ağacla




döydülər, böyrəyim də şişib. Cavanşir Bağırov özü də döydü, ailə üzvləri də. Şil-küt halda Şamaxı xəstəxanasına düşdüm.

**- Səbəb nə idi ki, döydülər Sizi?**

- Ondan əvvəl Cavanşir Bağırovun qayınanası taxıl sahəmə heyvan salıb otarmışdı. Sahə müvəkkilini çağırmışdım ki, gəl bax, mənim taxılımı otarır. Sahə müvəkkili də onları danlamışdı, bunun əvəzini çıxmaq üçün də məni tutub döydülər.

### «O HAQQ-HESABDA MƏN BURDA OLMAMIŞAM»

Bələdiyyə sədrinin müavini Cavanşir Bağırov isə deyir ki, hadisə vaxtı Ağsuda olub və Tahir Quliyevin döyülməsindən xəbəri olmayıb:

- Şahidlər də var, gedib izahat da yazıblar ki, mənim xəbərim olmayıb, orda olmamışam. O adam üzünü-gözünü cırıb, gedib girib xəstəxanaya.

**- Tahir Quliyev həm qohumlarınızdan şikayətçidir, həm də Sizdən.**

- Qohumumun üstünə maşın sürüb, qohumum da maşının açarını əlindən alıb, gedib polisə şikayət edib. Bu da eşidən kimi üzünü-gözünü cırıb gedib polisə ki, məni döyüblər.

**- Həmin adamla Sizin ailəniz arasında münaqişəyə səbəb nə olub?**

### «SÜBUTU YOXDUR Kİ, ONU KİM VƏ NƏ ƏSASLA DÖYÜB»

- Heç bir problem olmayıb. Energetika Nazirliyindən gəliblər həmin əraziyə, yüksəkgərginlikli elektrik naqillərinin dirəklərini dəyişirlərmiş. Bu, bələdiyyə torpağıdır, mən də bu kəndin bələdiyyə nümayəndəsiyəm. Tahir gəlib orda söyüş söyüb, camaatın üstünə maşın sürüb, deyib bu yeri mən biçəcəyəm. Ondan soruşan lazımdır ki, sənin müqavilən yox, torpağın yox. Nə əsasla biçəcəksən o sahəni.

**- Şamaxı Polis Şöbəsində təhqiqat aparılır, Sizdən də izahat alınıb?**

- Hamı izahat verib, mən də. Onun bircə şahidi, sübutu yoxdur ki, onu kim döyüb və nə əsasla döyüb.

Tahir Quliyevsə deyir ki, hadisə baş verən gün torpaq sahəsinin yaxınlığında heç bir nazirliyin işçisini görməyib. Hadisə onunla bələdiyyə nümayəndəsi və ailə üzvləri arasında baş verib. Torpaq sahəsinə gəlincə isə, sənədlə özünə və qardaşına məxsusdur, vaxtlı-vaxtında da vergisini ödəyir.

Şamaxı Rayon Polis Şöbəsindən AzadlıqRadiosunun «Qaynar xətt»inə verilən məlumata görə, Tahir Quliyevin bələdiyyə sədrinin müavini və ailə üzvlərindən verdiyi şikayət əsasında araşdırma aparılır.

***Esmira Cavadova***

## Şikayətiniz, sözünüz olduqda AzadlıqRadiosunun «Qaynar xətt»inə müraciət edin:

**Telefon: (+99412) 436-77-41**
**SMS: (+99450) 744-10-17**
**E-mail: efir@azadliqradiosu.az**
**azadliq@rferl.org**




Neftçilər prospekti 61 ünvanda 7 ailənin yaşadığı evlərin uçurulmasına başlanılıb

# 7 ailənin evini uçurdular

**İyunun 4-də Bakının Səbayel rayonu, Neftçilər prospekti 61 ünvanda 7 ailənin yaşadığı evlərin uçurulmasına başlanılıb. Bu barədə Azadlıqradiosuna evləri uçurulanlardan biri - Aidə Əliyeva məlumat verib. O deyir ki, indiyə qədər «Azinko» şirkəti onların evlərini gecə saatlarında bir neçə dəfə uçurmağa cəhd edib. Amma hər dəfə sakinlər ağır texnikanın qarşısına çıxaraq buna imkan verməyiblər:**

«İki ay biz evlərimizin sökülməsinə imkan vermədik. Amma bu gün səhər bizi polis gücünə zorla bayıra atıb evlərimizi uçurdular. 57-59 saylı evlərin sökülməsi haqda sərəncamlarla aldadaraq evlərimizi sökürlər. Halbuki bizim evlər Neftçilər prospekti 61 ünvanda yerləşir ki, buranın da sökülməsi ilə bağlı heç bir sərəncam yoxdur».

Aidə Əliyeva deyir ki, əvvəlcə onlara hər kvadratmetr üçün 1500 manat təklif edilib. Bununla razılaşmayıblar. Daha sonra Nərimanov rayonunun Keşlə qəsəbəsində «Azinko» şirkətinin tikdiyi evlər təklif olunub. Onlar bu evlərə köçməyə razı olmayıblar, indi yaşadıqları əraziyə yaxın yerdə onlara mənzil verilməsini istəyiblər.

«Azinko» şirkətinin texniki istehsalat şöbəsinin əməkdaşı Rüfət Əhmədov deyir ki, onlar həmin ərazidə paytaxta girişin genişləndirilməsi ilə bağlı dövlət sifarişini həyata keçirirlər. Evləri plana düşən sakinlərə isə hər kvadratmetr üçün 1500 manat, ya da Bakının Nərimanov və ya Yasamal rayonlarında hazır mənzillər təklif edirlər: «Təklif etdiyimiz mənzillər həmin adamların yaşadığı evlərin kvadratından iki dəfə artıq, təmirli mənzillərdir. Sökdüyümüz evlər isə istifadə müddətini çoxdan başa vurmuş qəzalı evlərdir».

***Maarif Çingizoğlu***

# Михаил Горбачев: "Ельцин меня предал"



Михаил Горбачев в Горбачев-фонде

**20 лет назад, 5 июня 1991 года, президент СССР Михаил Горбачев выступил с Нобелевской лекцией об обновленном Советском Союзе и его роли в обновленном мире. "Мы пошли на крупные и, может быть, самые значительные в XX веке преобразования - для своей страны, для ее народов. Но - и для всего мира" , - сказал тогда Горбачев.**

Советскому Союзу оставалось жить всего полгода. О последних месяцах СССР мы говорили с Михаилом Горбачевым накануне его 80-летия. Это интервью президент СССР дал Радио Свобода в рамках проекта "Распад СССР: 20 лет назад".

**- Вы верите, что после путча у нового Союзного договора был шанс?**

- Руководители республик под моим руководством продолжали этот процесс. К моменту подписания Беловежских соглашений обновленный проект был готов. Причем он такой кровью дался! Я один раз не выдержал, просто прекратил переговоры и ушел. Я говорил: я иду с вами до тех пор, пока вы не отрицаете необходимость создания обновленного, учитывающего самостоятельность республик, но все же Союзного государства. Я был твердо за Союз как государство. А они были за союз республик.

**- Они - это все лидеры республик?**

- Ельцин давил на всех.

**- А Леонид Кравчук? А Нурсултан Назарбаев разве другую позицию занимали?**

- Назарбаев, между прочим, был решительным сторонником сохранения Союза как государства. Он ведь и не поехал на подписание Беловежских соглашений, когда я ему сказал, в чем там замысел, какая там каша заваривается…

**- Все переговоры о новом Союзе были общими? Или вы пытались убеждать лидеров республик и с глазу на глаз?**

- Приходилось и с глазу на глаз.

**- С кем чаще всего?**

- Там Россия задавала тон… Поэтому с Россией нам приходилось вести один, другой, третий разговор. И со всем руководством, и по отдельности - с Ельциным, и с председателем Верховного Совета, с другими руководителями…

**- И тем не менее последовали Беловежские соглашения. Вы не сумели убедить Бориса Ельцина в своей правоте?**

- 14 ноября 91-го года Ельцин перед телевизионными камерами сказал, что Союз будет, что он - за Союз. Я сознательно сделал так, чтобы он сказал об этом публично.

- Но и это ситуацию не спасло.

- Потому что я имел дело с предателями, которые заседали со мной и говорили одно, а за моей спиной делали другое. Я имею в виду, прежде всего, Ельцина…

**- Ельцин вас предал?**

- Конечно! Это самое худшее предательство! Вот мы сидим с ним, разговариваем, договариваемся, а потом он уходит и за спиной делает другое. Причем, если бы вы его послушали… Это ведь всегда был разговор секретаря ЦК и регионального политика. А потом он выходил - и делал посвоему. Это был игрок, авантюрист! Талантливый авантюрист.

**- Если вы понимали это, то почему не смогли переиграть его политически?**

- Политически я его переигрывал. Но потом создалась ситуация, когда вся номенклатура пошла стеной против политики Горбачева.

**- Вас многие предавали?**

**Продолжение в сайте radioazadlyg.org.**

***Людмила Телень***

# Встреча Мамедъярова с Клинтон

**Министр иностранных дел Азербайджана Эльмар Мамедъяров, находящийся с визитом в Вашингтоне, встретился с Государственным секретарем США Хилари Клинтон. В коротком заявлении для прессы еще до встречи Клинтон отметила, что взаимоотношения США и Азербайджана имеют стратегическое значение и сотрудничество между странами укрепляется:**



Госсекретарь Хилари Клинтон и министр иностранных дел Эльмар Мамедъяров, 5 мая 2009

«Мы также полны решимости продолжать свою совместную работу по поиску путей урегулирования Карабахского конфликта в рамках Минской группы ОБСЕ».

Э.Мамедъяров в свою очередь, поблагодарил США за стремление к мирному урегулированию Карабахского конфликта и подчеркнул, что отношения между странами углубляются. Министр заявил, что его уверенность укрепляют последнее заявление президентов стран-сопредседателей Минской группы ОБСЕ.

# Абитуриентов стало меньше?

**"В этом году для участия в приемных экзаменах в вузы подали заявления 110 423 абитуриента", - сообщила в пятницу председатель Государственной комиссии по приему студентов Азербайджана Малейка Аббасзаде.**

"В этом году количество заявлений, поданных абитуриентами, уменьшилось по сравнению с прошлым годом на 1,85процента, или на 20 085 заявлений. В азербайджанский сектор подано 99 190 заявлений, в русский сектор - 11 233. В первую группу специальностей подали документы 34 988 абитуриентов, во вторую группу - 27 068 , в третью группу - 32 859, в четвертую - 15 508", - сказала председатель ГКПС.

По ее словам, в этом году 50,38 процента из числа абитуриентов составляют парни, 49,62 процента - девушки.

# Ermənistanda gözlənilməz dəyişikliklər

## İqtidarla müxalifət dialoqa gedir



Müxalifət fəalı Sasun Mikaelyan azadlığa çıxır. 27 may 2011

**Indi Ermənistanda baş verənləri bir çox keçmiş sovet respublikalarındakı müxalifət yəqin ancaq arzulaya bilər. Müxalifət lideri, Ermənistan Milli Konqresinin rəhbəri Levon Ter-Petrosyan Yerevanda minlərlə tərəfdarı qarşısındakı çıxışında deyib ki, iqtidar dialoqun başlanması üçün onların qoyduğu ilkin şərtləri qəbul edib. Həmin ilkin şərtlərə görə, həbsdə olan bütün müxalifətçilər azad edilməli, şəhərin mərkəzi meydanında etiraz aksiyalarının keçirilməsinə icazə verilməli, ötən prezident seçkilərindən sonra müxalifətin keçirdiyi etiraz aksiyasında öldürülənlərin qatillərinin tapılması üçün təkrar istintaq başlanmalı idi.**

Ter-Petrosyan mayın 31-də keçirilən mitinqdəki çıxışında deyib ki...

**... İQTİDARIN İLKİN ŞƏRTLƏRƏ RAZI OLMASI DİALOQA YOL AÇIR**

Dialoqun əsas mövzusu müxalifətin əsas tələbləri olmalıdır. Həmin tələblərə erkən seçkilərin keçirilməsi də daxildir. "Bizim Konqresin gündəmi məlumdur – erkən prezident və parlament seçkilərinin təşkili. Amma bu o demək deyil ki, biz hakimiyyətin əks arqumentlərini nəzərdən keçirə - mən "qəbul edə" demirəm - nəzərdən keçirə bilmərik".

Mayın 27-də Ermənistan hakimiyyəti həbsdəki siyasi rəqiblərinə amnistiya verib. Amnistiya son nəticədə 400 nəfərin azadlığa çıxması ilə nəticələnəcək.



Yerevan - müxalifətin aksiyası. 31 may 2011

**QƏRBLƏ RUSİYANIN ERMƏNİSTANDA RƏQABƏTİ?**

Amma Sarkisyanın müxalifətlə sövdələşməyə getməsində başqa səbəblər də ola bilər. Həm Sarkisyanın, həm də Ter-Petrosyanın ehtiyat etdiyi bir adam var. Bu da keçmiş prezident Koçaryandır. O hələ də ölkədə böyük iqtisadi gücə malikdir, on illik hakimiyyəti dövründə çoxlu biznes strukturları yaradıb.

Nə indiki prezident Sarkisyan, nə də müxalifət lideri, həm də keçmiş prezident olmuş Ter-Petrosyan onun siyasi arenaya qayıtmasını istəmirlər. Koçaryanın Rusiyanın baş naziri Putinlə yaxın münasibəti var. İndiki prezident Sarkisyan və müxalifət lideri Ter-Petrosyan isə daha çox Qərbə meyil edir. Onların öz aralarında dialoqa getməsinə ABŞ və Avropa Birliyi də çalışırdı. ABŞ dövlət katibi Hillari Klinton da Ermənistan müxalifəti və iqtidarını dialoqa çağırmışdı. Son amnistiyanı ilk alqışlayanlardan biri də Avropa Birliyi olmuşdu.

Azad Avropa və Azadlıq Radioları Korporasiyasının Ermənistan xidmətinin rəhbəri Hrayr Tamrazyan deyir ki, indi Ermənistanın siyasi dairələrində bir nikbinlik var: "Bu, artıq siyasi mədəniyyətin yeni səviyyəsidir. Rejim dəyişikliyinə çağıran müxalifət və müxalifətçiləri həbsə atan hakimiyyət indi dialoq zərurətindən və azad seçki keçirməyin vacibliyindən danışırlar".

***Rövşən Qənbərov***

# Dialoqun vaxtı çatıbmı?

**Ermənistanda hakimiyyətlə müxalifətin dialoqu başlayıb. Hakimiyyətin artıq müxalifətin ilkin şərtlərini qəbul etdiyi bildirilir. Bura siyasi məhbus hesab edilən şəxslərin azad edilməsindən tutmuş, şəhərin mərkəzində aksiyalar keçirilməsinə şəraitin yaradılması kimi bir sıra məsələlər daxildir. Bəs Azərbaycanda hakimiyyət və müxalifət təmsilçiləri dialoq mövzusuna necə baxırlar?**

Zahid Oruc:

**«İNDİKİ GERÇƏKLİKDƏ DİALOQU MÜMKÜN SAYMIRAM»**

«Hətta dialoq halında belə Ermənistan bununla Azərbaycandan demokratik olduğunu sübut edə bilməz. Süngü üzərində öz hakimiyyətini bərqərar etmiş Sarkisyan rejimi daxildə müvazinətini itirən kimi bu məsələləri gündəliyə gətirir. İndi geniş meydanların verilməsi və bir sıra siyasi hüquqların tanınması Ermənistanın beynəlxalq aləmdə üzünü ağartmayacaq.

Həqiqətən də dialoq Azərbaycanda siyasi sistemin problemlərindən biridir. Bunun başlıca səbəbi də qarşılıqlı tanımazlıqdır. Faktiki 93-cü ildən bəri müxalifət hakimiyyətin legitimliyini tanımadığından özünün legitimliyi də sual altına düşüb. 2003-cü ildə ikinci yeri tutan Müsavat özünün ikinciliyini tanısaydı, bununla da gələcək dialoqun yolu açılardı. Mən indiki gerçəklikdə dialoqu mümkün saymıram...».

Mehman Cavadoğlu:

**«AZƏRBAYCANDA BİR AZAD VƏ ƏDALƏTLİ SEÇKİ OLARSA...»**

«Dünyada gedən proseslər bizim gözlərimiz qarşısında baş verir. Kim bu proseslərlə ayaqlaşacaqsa, onunla uyğunlaşacaqsa, qalib də o, olacaq. O ki qaldı müxalifətin hakimiyyəti legitim saymamasına və onun özünün legitimliyinin tanınmamasına, bunun bir səbəbi var. Azərbaycanda bir azad və ədalətli seçki olarsa, bu problem avtomatik aradan qalxmış olar...».



Zahid Oruc:

**Bu müzakirəni AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz**

***Babək Bəkir***

# Hakimiyyətin qala divarları



Rəşid Şerifin karikaturası

**Görəsən bilən varmı, son 1 ildə neçə nəfər «polisə müqavimət» maddəsi ilə həbs olunub? Bəs son 5 il və ya 10 il ərzində? Yaxud heç bircə dəfə olubmu ki, belə hadisələri araşdıran məhkəmə polisin iddiasını rədd edib, vətəndaşın tərəfini tutsun? Nə vaxtacan ölkədə hakimiyyətin istədiyi kimi düşünməyən, siyasi dəyişiklikləri tələb edən adamların önündə güc strukturlarından sipər çəkib duracaqlar?**

Hakimiyyət Xəzər kimi, demokratiya və insan haqlarını da sadə insanlardan hündür divarla ayırmaqdadır. Bu nə divardır belə? Gəlin, onun «materialına» nəzər salaq.

### HAKİMİYYƏTƏ GƏLİN, SİZİ DƏ MÜDAFİƏ EDƏK

*Bir il öncə müxalifət fəallarından birinin yazısı diqqətimi cəlb etmişdi. Mitinqə çıxmış etirazçıları həbs edən polislərdən biri həmin adama deyirmiş ki, «çox olun, güclü olun, hakimiyyətə gəlin, sizi də belə müdafiə edək».* Bir tərəfdən, demokratiya tərəfdarlarına hücum edənlərin bir elə güclü ideya sahibi olmadığını göstərir və ümid verir ki, etirazlar daha ciddi, daha ardıcıl və daha intensiv xarakter alsa, bu etirazlara müqavimət zəifləyəcək. Ancaq bu, məsələnin bir tərəfidir.

### CƏZASIZLIĞINA İNANAN ADAMLAR

İşin ikinci tərəfi də odur ki, bu gün «Azadlıq!» şüarları səsləndirənləri döyənlər, tutanlar, onlara işgəncə verənlər, cibinə nəşə atdırıb tutduranlar bu işi ürəklə edirlər. Bəhanələri də var. İnanırlar ki, hakimiyyət dəyişsə, etdikləri zülmə bəraət qazandıra biləcəklər və yeni hakimiyyət yiyələrinə öz xidmətlərini təklif edəcəklər. Bu inam Azərbaycanda siyasi dəyişikliklər istəyənlərin önündə iri bir divar yaradır və bu divarın kərpicləri etdiyi əməllərə görə cəzalanmayacaqlarına inanan adamlardan ibarətdir.

Ətrafda baş verənlərə birmənalı şəkildə əxlaqi qiymət verilməyəndə, hər şey öz adı ilə çağırılmayanda, belə bir cəzasızlıq mühiti yaranır.

### AĞ VƏ QARA RƏNGLƏR QARIŞANDA

İstənilən siyasi sistemin (açıq, ya qapalı) özünütəmizləmə mexanizmi olur. Öz bacarıqsızlığı, xəyanəti, acgözlüyü, yaxud sistemin mənfi hesab etdiyi başqa keyfiyyətləri ilə sistemə ziyan vuran adamlar hansısa bir formada kənara atılır. Azərbaycanda bu sistem sanki işləmir. Belədə bütün ölkə sanki unitazının suvurma sistemi xarab olmuş bir otağa çevrilir.

Azərbaycan siyasi səhnəsində, etdiyi cinayətlərdən, xəyanətlərdən asılı olmayaraq, heç kəs ortadan qalxmır. Hamı ortadadır. Və hamı danışır. Yaranan qarışıqlığı təsəvvür edə bilirsiniz? Oğru da, doğru da eyni qətiyyətlə bağıranda, toplum öz siyasi oriyentirini itirir. Nəticəsi? Pis addımla yaxşı addım, məhrumiyyətə dözməklə xəyanətin nəticəsi eynidirsə, siyasi aktyorların riskə getməyi üçün ciddi bir motiv olmur. Deməli, birmənalı addımlar atmağa tələsmək lazım deyil, ən pis qüvvə ilə də körpüləri yandırmaq düzgün deyil (birdən təkləndin?). Xalqa xəyanətin də bir elə ağır bədəli yoxdur (5-6 ilə hamı hər şeyi yaddan çıxarır). Beləcə bütün siyasi səhnə qara ilə ağ rəngin qarışdığı dolaşıq bir meydana çevrilir.

### TƏRƏZİNİN ÖZÜ

Bütün çətin problemlərdə olduğu kimi, bu məsələdə də çıxış yolunu təklif etmək asandır, o yolu tutub getmək isə çox çətin. Sadəcə, suları durultmağa ehtiyac var. Çox deyilib ki, cəzalandırılası adamları cəzalandırmaq üçün güc çatışmazlığı problemi var. Amma haqqında danışılan bu siyasi güc ədalət tərəzisinin daşından başqa bir şey deyil. Birinci addım isə əyrini və doğrunu müəyyənləşdirəcək düşüncə tərzinin formalaşmasından keçir.

Adamları öz adı ilə çağırmaq, edilən hərəkətlərə layiq olduqları qiyməti vermək asan işdirmi? Yaxın keçmişimizə inansaq, yox. XX əsrdə Azərbaycanda çox qanlar tökülüb, çox torpaqlar itirilib, amma tariximiz hələ bir nəfərə düz əməlli mənfi qiymət verə bilməyib. Müstəqil Azərbaycanın memarı Məhəmməd Əmin Rəsulzadə də öyülür, onun qurduğu respublikanı məhv etmiş Nəriman Nərimanov da. İmkan tapıb 30-cu illərin cəlladı Mircəfər Bağırova da bəraət verənlər az olmur. Belə ölkədə müxalifət fəalına beş-altı şillə vuran polis, ya «İctimai Şura» üzvü nədən çəkinməlidir ki? Tarixin qınağından? Gülməli səslənir. Bəs xalqın qəzəbi? Zaman göstərər.

***Qorxmaz Əsgərov***


Hakimliyə namizədlərin imtahanı, 4 mart 2007

# Dövlət qulluğuna qəbul üçün yaş senzi tətbiq olunacaq

*Azərbaycanda dövlət qulluğuna qəbulla bağlı yaş senzi tətbiq olunacaq. Bunu Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Dövlət Komissiyasının sektor müdiri Vüqar Əsgərov deyib: «Dövlət qulluğunda yuxarı yaş senzinin 65 yaş müəyyən olunmasından sonra dövlət qulluğuna qəbulda da yaş senzi tətbiq olunacaq və bu yaş senzi 65 yaşa kimi müəyyənləşəcək».*

V.Əsgərov deyib ki, yaş senzinin tətbiqindən sonra dövlət qulluğunda vakansiyaların sayı çoxalacaq: «Bu da gənclərin dövlət qulluğuna qəbul olmaq imkanlarını genişləndirəcək və stimul yaradacaq».

***APA***

# Cənub rayonunda yetim uşağın bazar həyatı...



Bazarlıq edən adam yükü Rəşidə verir ki, maşına aparsın

*- Rəşid, bu sumkanı maşına apar!*

Balacaboy Rəşid əmri dərhal yerinə yetirir. Bu xidmətə görə 20 qəpik qazanır.

*- Rəşid, dalımca gəl, bu salafanı da hazır saxla.*

Rəşid dərhal bu əmrə də tabe olur. Bazarlıq edən adam yükü Rəşidə verir ki, maşına aparsın. Hər belə xidmətdən sonra Rəşid haqqını alır. Elə gün olur ki, deməsinə görə, qazancı 5-6 manata çatır. Əlinə bir qəpik keçmədiyi gün də olur.

Rəşid cənub rayonların bazarların birinin daimi sakinidir, 9 yaşı var. Ata, anasını itirib. Özünün dediyinə görə, yaxınların yanında qalır. O deyir ki, bazarda özü kimi uşaqlar çox idi. Polis bir neçə dəfə bazara gəlib, uşaqları buradan uzaqlaşdırıb. Rəşid şəkilini çəkməyə icazə verir. Diktafonu ona doğru uzadanda isə, qorxub qaçdı. Bazardan uzaqlaşmaq istəyəndə, qabağımıza çıxdı. Bizdən xahiş etdi ki, onu polisə verməyək. Rəşid onun elə şərti adıdır.

**«EVƏ ÇÖRƏK APARIRAM»**

*«Evə çörək aparıram. Mənim bacı və qardaşlarım da var».*

Onu başa salmaq istədim ki, polis deyilik, jurnalistik. Lakin əlini tovlayıb getdi. «Hamısı birdir», - dedi. Sonradan öyrəndim ki, vaxt tapıb dərsə də gedir. İki bacısı və bir qardaşı yaxınların himayəsində yaşayırlar. Himayədə yaşadığı ailə də kasıbdır.



Dilənçilər arasında 3-4 yaşdan tutmuş 12-14 yaşa qədər yeniyetmələrə rast gəlmək olur

Cənub bölgəsinin rayonlarında Rəşid kimi həyat sürən uşaqlar çoxdur. Onlara bazarlarda, sərhəd keçid məntəqələrində rast gəlmək olar. Aralarında dilənçilik edən də var. Cənub bölgəsinin istənilən rayonunda küçələrdə dilənən azyaşlı uşaqları görmək mümkündür.

Onlar yoldan keçənlərin qarşısını kəsir, müxtəlif bəhanələr gətirərək pul istəyirlər. Çayxanalarda, yol kənarlarında, vağzallarda dolaşırlar. Dilənçilər arasında 3-4 yaşdan tutmuş 12-14 yaşa qədər yeniyetmələrə rast gəlmək olur.

***«BOŞANMA ARTIB»***

*Lənkəranda fəaliyyət göstərən «Ailə Tədqiqatı» Qeyri-Hökumət Təşkilatının rəhbəri Rəsmiyyə Axundova deyir ki, kimsəsiz, valideyn himayəsindən məhrum olan uşaqlar çoxdur:* «Ailəsini burda qoyub Rusiyaya işləməyə gedənlərin təxminən 15-20 faizi bir qədər keçdikdən sonra ailəni yaddan çıxardır. Boşanma halları da az deyil. Belə ailələrdə böyüyən uşaq erkən yaşlarında işləməli, ya da küçələrdə dilənməli olur».

*Rəsmiyyə Axundova deyir ki, bazarlardan zorla uşaqları uzaqlaşdırmaqla problem həll olunmur. Uşaqların problemini həll etmək üçün birinci növbədə ailənin problemini həll etmək lazımdır:* «Düzdür, Lənkəranda uşaq evi var. Belə uşaqları küçədən yığıb bura gətirirlər. Uşaq evində yaxşı şərait də yaradılıb. Bu, məsələnin bir tərəfidir».

**«QANUNLAR KAĞIZ ÜZƏRİNDƏ QALIB»**

*Hüquqşünas Elman Hüseynov deyir ki, Azərbaycanda qəbul edilən 29 qanun sırf ailə və uşaqla bağlıdır. Onun fikrincə, bu qanunlar içərisində ən önəmlisi «Uşaq hüquqları haqqında» qanunudur:* «Faktiki olaraq uşaqların hüquqları qorunmur. 15-20 il bundan əvvəl ölkəmizdə dilənçi uşağa rast gəlmək çətin idi. İndi onların əlindən çayxanada, parkda əyləşmək olmur. Deyirlər ki, bu uşaqlar zəmanəmizin qəhrəmanlarıdır».

***Müstəcəb Məmmədov***

# Avropada ən populyar rüşvət növləri

İri Avropa şirkətlərinin əməkdaşlarının 30 faizindən çoxu yeni kontraktlar əldə etmək üçün pul, hədiyyə verməyə, ya da təşkilati xərcləri ödəməyə hazırdırlar. Böyük Britaniyanın «Ernst&Young» şirkətinin apardığı sorğu bu nəticəni ortaya çıxarıb. 25 Avropa ölkəsində keçirilən sorğuda sıravi əməkdaşlardan tutmuş rəhbərlərədək 2300-dən çox adam iştirak edib. Ümumilikdə, avropalı respondentlərin 2/3-i ölkələrində rüşvətxorluq və korrupsiyanın geniş yayıldığını etiraf edib. Respondentlərin 59 faizi düşünür ki, qoyulan məqsədlərə çatmaq üçün şirkət rəhbərləri etik prinsiplərdən əl çəkməyə hazırdırlar. Sorğuda iştirak edən rəhbərlərin yarısı da bu fikri bölüşür. Respondentlərin 40 faizi qeyd edib ki, son 2 ildə müşahidə olunan iqtisadi böhran zamanı bu problem daha da dərinləşib.



# Keçmiş səfir Wilson Azərbaycana köməyə gəlir


Ross Wilson

**Amerikanın Azərbaycandakı keçmiş səfiri Ross Wilson "Avropa və Avrasiya Enerjisi: Təhlükəsizlik və Rifah naminə İnkişaf İmkanları" mövzusunda dinləmədə iştirak edib. Hazırda Atlantika Şurasının Dinu Patriciu Avrasiya Mərkəzinin direktoru olan Wilson ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsindəki çıxışında deyib ki, enerji qlobal iqtisadiyyatda həlledicidir.**

Wilson deyib ki, Amerikanın Xəzər regionunda maraqları bir sözlə deyilsə, həm də "qeyri-İran" kimi səciyyələndirilə bilər. Yəni qanunvericilikdə də təsbit olunduğu kimi, Amerikanın siyasəti İranın neft və qaz sənayesinin inkişafının əleyhinədir. ABŞ əmin olmalıdır ki, Xəzər enerjisi üçün İran prinsipial marşrut olmayacaq.

**"QAZ MƏRHƏLƏSİNDƏ AMERİKANIN KÖMƏYİ LAZIMDIR"**

Wilson deyib ki, Xəzər enerjisinin növbəti inkişaf mərhələsi qazdır. Buna isə Amerikanın köməyi lazımdır. Azərbaycanın Şahdəniz yatağı yaxın aylarda tam gücü ilə işləməyə başlayacaq və Avropaya qaz verə bilər. Ancaq istehsalçılar, istehlakçılar, tranzit ölkələri arasındakı danışıqlarda tərəqqi zəifdir. Yeni Cənub Dəhlizinin gerçəkləşməsi və Şahdəniz yatağının inkişafı Amerikanın maraqlarına əhəmiyyətli köməkdir. Wilson deyib ki, indi müzakirə olunan yeni İran sanksiyaları isə istəmədən bu gələcəyə ziyan vura bilər.

**WİLSONUN ARQUMENTLƏRİ**

Wilson deyib ki, indi müzakirə olunan yeni İran sanksiyaları isə tələb edə bilər ki, Şahdəniz yatağında payı olan bp və digər Qərb şirkətləri layihədən çıxsınlar, çünki onlarda İranın payı var. Bunun effekti nə olacaq? Şahdəniz yatağı istismar olunmayacaq. Qaz istəyən Avropa üzünü Rusiyaya tutmalı olacaq.

Layihənin başında Azərbaycan özü dura bilər. Ancaq o, pul qazanmaq üçün çox güman ki, qazını Rusiyaya və İrana satmalı olacaq. Bu isə Amerikanın Avrasiya enerji siyasətinə və ya İranı cəzalandırmaq siyasətinə heç bir yardım etməyəcək. Şahdənizsiz Xəzər qazı inkişaf edə bilməyəcək. Avropaya qaz daşıyan iri kəmərlər tikilməyəcək. Türkmən qazı Avropaya ötürülə bilməyəcək. Wilson öz çıxışının yekunu olaraq Konqresi və hökuməti İrana qarşı elə effektiv və güclü sanksiyalara çağırıb ki, bunun Şahdəniz layihəsinə və Avrasiya enerjisinə ziyanı dəyməsin.

# AzadlıqRadiosunun yeni prezidenti təyin edildi

**CNN-in keçmiş sədr müavini və icracı katibi olan Steven W. Korn Azadlıq və Azad Avropa Radioları Korporasiyasının (AzadlıqRadiosunun) yeni prezidenti təyin edilib.**

O deyib ki, bu radionun missiyasını dəstəkləmək imkanı əldə etdiyi üçün çox xoşbəxtdir. Kornun sözlərinə görə, 60 illik tarixində bu radio azad medianın gücünə ən yaxşı nümunə olub və jurnalistlər dünyadakı ən gərgin mühitlərdən birində öz işlərini layiqincə görməyə davam edirlər. Korn iyulun 11-dən vəzifəsinin icrasına başlayacaq.

Azadlıq və Azad Avropa Radioları Korporasiyasının əvvəlki prezidenti Jeffrey Gedmin bu ilin martında istefa vermişdi. Steven W. Korn 1996-2000-ci illərdə CNN televiziyasının sədr müavini və icraçı katibi, Almaniyada, İspaniyada xəbər telekanallarının rəhbəri olub.


Steven W. Korn

# İsa Qəmbər: «Son 18 ildə bir qrup şəxs bu ölkəni sanki işğal edib»


İsa Qəmbər

**- Dövlətin müstəqilliyinin atributları bəllidir. Bəs cəmiyyətin müstəqilliyinin atributları hansılardır?**

- Cəmiyyətin müstəqilliyi dedikdə, təbii ki, azadlıqlardan söhbət getməlidir. Təəssüf ki, bu gün Azərbaycanda ictimai azadlıqlar, şəxsi azadlıqlar yox dərəcəsindədir. Azadlıqlar çox ciddi şəkildə məhdudlaşdırılır və bunun da məsuliyyəti Əliyev rejiminin üzərindədir.

**- Kimdi bu ölkənin indi faktiki sahibi?**

- Bu ölkənin real sahibi Azərbaycan xalqıdır. Ancaq son 18 ildə bir qrup şəxs bu ölkəni sanki işğal edib. Öz şəxsi mülkiyyəti, şəxsi müəssisəsi kimi istifadə edir. Ancaq mən inanıram ki, bu, müvəqqəti bir haldır. Azərbaycan xalqı öz dövlətinə, öz ölkəsinə sahib çıxacaq.

**- İsa bəy, bu dediyiniz vəziyyətə görə, kim-kimi qınamalıdır? Xalq hakimiyyəti qınamalıdır, xalq müxalifəti qınamalıdır və yaxud sizin öz variantınız...**

- Qınamaq problem deyil. Hamı bir-birini qınaya bilər. Amma ilk növbədə bu kəmfürsət, görməmiş insanları qınamaq lazımdır ki, özlərinin şəxsi rifahları, zənginlikləri üçün bu dövləti işğal ediblər. Və öz şəxsi sərvətləri kimi ondan yararlanırlar. Təbii ki, bütün ictimai qınaq məhz bu şəxslərə-1993-cü ilin iyununda qiyam nəticəsində hakimiyyətə gələn və bu müddətdə bütün seçkiləri saxtalaşdıran hakimiyyətə yönəlməlidir. Amma eyni zamanda, təbii ki, bu vəziyyəti dəyişmək bizim xalqımızın, cəmiyyətimizin, bizim hər birimizin vəzifəsidir. Biz bu vəziyyəti dəyişmək uğrunda mübarizə aparmalıyıq. Sadəcə, bir-birimizi qınamaqla məsələ həll olunmayacaq...

**Söhbətə AzadliqRadiosu.az-da qulaq asmaq olar.**

***İlqar Rəsul***

# İcmalar Qafqaz Müsəlmanları İdarəsinə hesabat verəcəklərmi?


Nardaranda yerləşən məscid

**Milli Məclis «Dini etiqad azadlığı haqqında» qanuna iyirmiyədək dəyişiklik etməyə hazırlaşır. Qanun layihəsinə görə, islam icmaları Qafqaz Müsəlmanları İdarəsinə hesabat verəcəklər. Bundan başqa, dini qurumlara dini mərkəz və idarələr rəhbər təyin edəcək və yalnız bundan sonra fəaliyyət göstərə bilərlər. Daha bir dəyişiklik isə dini icmanın qeydiyyata alınması ilə bağlıdır. İndi qeydiyyat üçün 10 nəfərin müraciəti yetərlidirsə, yeni qanun layihəsinə görə, 50 nəfər müraciət etməlidir.**

**«DÖVLƏT MƏSCİDDƏ NƏ BAŞ VERDİYİNİ GÖZƏL BİLİR»**

*Müşfiqabad məscidi dini icmasının rəhbəri Mübariz Qaçayev yeni dəyişiklikləri «oyun» adlandırır:* «Dini icma varsa, o məsciddə icma rəisi və ya imamı özü seçməlidir. Nədən tanımadıqları adamı gətirib imam etməlidirlər? Məntiqə uyğun deyil. Onların arasında savadlı olmasa, yenə başqa məsələ ».

O ki qaldı dini icmaların Qafqaz Müsəlmanları İdarəsinə hesabat verməsinə, Mübariz Qaçayev buna da etiraz edir. O deyir ki, müsəlman icmaları rəsmi quruma hesabat verə bilərlər, qeyri-hökumət təşkilatı olan Qafqaz Müsəlmanları İdarəsi isə ikinci dərəcəli olmalıdır. Bir də ki, Azərbaycanda məscidlər onsuz da nəzarət altındadır:

**«BAŞ NAZİR DƏ PARLAMENTƏ HESABAT VERİR»**

*Parlamentin insan haqları komitəsinin üzvü Astan Şahverdiyev:*

- Hesabat verməlidirlər də. Nəylə məşğul olurlar, maliyyə mənbəyi nədir? Əlbəttə, hesabat verməlidirlər. Müxtəlif cərəyanlar var. İcma adı altında dövlətçilik əleyhinə çıxırlar, ya dinin mənfi tərəfləri ilə məşğul olurlar. Nəsə qeyri-sabitlik yaratmaq istəyirlər.

- *Məqsəd onları nəzarətdə saxlamaqdırmı?*

- Niyə o saat mənfi tərəfi fikirləşirsiz? Baş nazir də hökumətə hesabat verir, parlament onu nəzarətdə saxlayır?

**«BƏS QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ KİMƏ HESABAT VERƏCƏK?»**

*Dini məsələlər üzrə ekspert Elşad Miri isə sualı belə qoyur:*

«Bəs Qafqaz Müsəlmanları İdarəsi kimə hesabat verəcək? İkincisi, bu nə qədər şəffaf qurumdur? Bütün bunlar Gürcüstandakı hadisələrdən sonra QMİ-nin əlini gücləndirməyə xidmət edir. Yəni özü dini icma olan idarəyə başqa dini icmaların hesabat verməsi o qədər məntiqsizdir, uyğunsuzdur. Bunun nəyə söykəndiyi bilinmir. Baxın, qeyri-islam təmayüllü dini icmalarla bağlı belə məsələ varmı? Varmı ki, provaslavlar harasa hesabat verməlidirlər? Yox. Bu, sadəcə, QMİ ilə bağlı məsələdir».

Ekspert son dəyişiklikləri dini etiqad azadlığına təcavüz kimi qiymətləndirir.

**«MƏQSƏD NƏZARƏTİ GÜCLƏNDİRMƏKDİR»**

*Dini Etiqad və Vicdan Azadlıqlarını Müdafiə Mərkəzinin rəhbəri İlqar İbrahimoğluna görə isə,* bu dəyişikliklər dini etiqad azadlığının məhdudlaşdırılmasına xidmət edir. O bu cür hala beynəlxalq praktikada da rast gəlmədiyini bildirir.

*Deputat İqbal Ağazadə* isə bu fikirdədir ki, məqsəd dini qurumlar üzərində nəzarəti daha da artırmaq, bir mərkəzə tabe etdirməkdir. Deputat deyir ki, bu dəyişikliklər qüvvəyə minsə, ciddi problemlər yaradacaq.

Qanun layihəsi Parlamentin İnsan Haqları Komitəsində müzakirə olunub və parlamentin müzakirəsinə tövsiyə olunub. *Komitə sədri Rəbiyyət Aslanova* bunu zamanın tələblərindən irəli gələn dəyişiklik kimi izah edib. «Dini etiqad azadlığı haqda» qanuna sonuncu dəfə iki il əvvəl dəyişiklik edilib.

***Şahnaz Bəylərqızı***

# Müsəlmanlar qrantı «haram» sayıb qaytarır

**İsveç Gənc Müsəlmanlar Təşkilatı (Sveriges unga muslimer) dövlətdən aldığı 1 milyon kron (təxminən 162 min dollar) vəsaiti geri qaytarmaq niyyətindədir. Təşkilat bu vəsaitin haram ola biləcəyindən şübhələnir. Hər il İsveçin Gənclər üzrə Milli Şurası ölkədəki gənclər təşkilatlarının fəaliyyətinə müəyyən miqdarda vəsait ayırır. Bu məbləğin üçdə ikisi Svenska Spel – qumar oyunlarına nəzarət edən dövlət qurumu tərəfindən ödənilir.**

Bu il Şura Gənc Müsəlmanlar Təşkilatına da 1 milyon kron pul ayırıb. Müsəlman QHT-sinin rəhbərliyi isə hesab edir ki, onlara ayrılan 1 milyonun tərkibində Svenska Spel-dən gələn pullar da ola bilər. İslama görə qumar oyunları haram sayıldığından, qurum bu pullardan imtina etmək qərarına gəlib.

İsveç Gənc Müsəlmanlar Təşkilatının sədri Muhammed Xarraki deyir ki, bu qərarı asanlıqla verməyiblər. Çünki ölkədəki gənclər təşkilatlarının ayaqda qalması dövlətin ayırdığı qrantlardan asılıdır.

«Amma orası da var ki, məhz gənclər adətən qumar oyunlarına meyilli olur, bu cür oyunlardan asılılığa düşürlər. Paradoksal situasiya yaranır – belə çıxır



ki, hansısa ictimai təşkilatın fəaliyyəti başqalarının əziyyəti üzərində qurulur. Beləliklə də, onlar mübarizə aparmalı olduqları şeyləri dəstəkləmiş olurlar»,- deyə Xarraki bildirb.

# Rəbiyyət Aslanovadan "Molla Nəsrəddin" jurnalına ittihamlar



Jurnaldan karikatura

*Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri, millət vəkili Rəbiyyət Aslanova Cəlil Məmmədquluzadənun naşiri olduğu "Molla Nəsrəddin" jurnalını ciddi tənqid edib. Modern.az-a açıqlamasında R.Aslanova bildirib ki, Azərbaycanın ictimai-siyasi tarixində "Molla Nəsrəddin" jurnalının dini xurafata, mövhumata qarşı mübarizəsini çox yüksək qiymətləndirsə də, jurnalın din xadimlərinə olan münasibətini birmənalı saymır. "Bu jurnalda bəzən Azərbaycan axundunu və mollasını elə qələmə verirdilər ki, onların mənfi obrazı uzun illər bizim gözümüzün önündən çəkilmədi. Hətta bu gün də bu yanaşma müşahidə olunur. Mənim üçün maraqlıdır, "Molla Nəsrəddin" XX əsrin əvvəllərində Azərbaycan üçün böyük işlər görmüş ziyalılardan niyə bir cümlə yazmayıb...".*

Fəlsəfə üzrə elmlər doktoru R.Aslanovanın fikrincə, "Molla Nəsrəddin"in ələ saldığı şeyxülislam və ayətullah obrazı heç də əsl gerçəkliyi əks etdirməyib. "Hacı Zeynalabdin Tağıyev də bunu yaxşı görürdü. Jurnalda əks edilən əsl axund, əsl şeyxüsilam, əsl ayətulla o obraz deyil və bunu gülünc hala gətimək olmazdı",-deyə professor vurğulayıb. Deputatın sözlərinə görə, 20-ci əsrin əvvəllərində Azərbaycanın çox böyük, savadlı din xadimləri olub.

# Pərviz Cəbrayılın Milli Kitab Mükafatının qalibi olması istefalar yaratdı




Birinci yeri "Yad dildə" romanı qazandı

*İyunun 4-də Milli Kitab Mükafatının qaliblərinin adları elan olunub. MKM-in təşkilatçısı, "Əli və Nino" mağazalar şəbəkəsinin rəhbəri Nigar Köçərlinin 17 münsifin 10 ballıq xal sistemi ilə qiymətləndirməsi əsasında qaliblər aşağıdakılar olub:*

I YER: Pərviz Cəbrayıl, "Yad dildə" romanı;

II YER: Məqsəd Nur, "Şəhər meri" romani;

III YER: Nəriman Əbdülrəhmanlı: "Yolsuz" romanı və Natiq Rəsulzadə, "Xunxarı" romanı- (rus dilində).

Müsabiqədə 1-ci yeri tutan şəxsə 3000, 2-ci yeri tutan şəxsə 2000, 3-cü yerin qalibinə isə 1000 manat pul mükafatı veriləcək.

Lakin yazıçı Pərviz Cəbrayılın "Yad dildə" romanının Milli Kitab Mükafatının qalibi seçilməsinə etiraz olaraq Münsiflər Heyətinin 3 üzvü istefa verdiyini bildirib. Bu barədə "Oxu zalı"na münsiflərdən biri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid bildirib. Onun sözlərinə görə, P.Cəbrayıl birinci yerə layiq deyil, onu Münsiflər Heyətindəki bəzi qruplaşmalar birləşib, sözü bir yerə qoyub qalib ediblər. "Bu, MKM-ə ziyan vuracaq. Hətta sponsorlar da MKM-i dəstəkləməkdən imtina edə bilər. Mən gələn il MKM-in münsifləri sırasında olmayacam".

Daha iki münsif - Parlamentin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova və Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayevin də eyni addımı atdığı bildirilir. Müsabiqənin təşkilatçısı Nigar Köçərli isə "Oxu zalı"na müsahibəsində sözügedən münsiflərin belə bir addım atması haqda hələ məlumatı olmadığını, onların bunu etməsinə inanmadığını bildirib. O deyib ki, belə bəyanatlar emossional reaksiya ola bilər. N.Köçərli inanmır ki, P.Cəbrayılın qalib elan edilməsi belə ciddi reaksiya doğura bilər. O, P.Cəbrayılın qalib gəlməsinin gözlənilməz olmadığını da bildirib: "Mən o əsərə inanırdım, ən azı ilk üçlükdə olacağına inanırdım".

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Pərviz: **"Bir gün ədəbiyyatımız da, jurnalistikamız da, özümüz də tam azad danışacağıq"**




**Nərmin Kamal Kamal Abdullaya görə AYO-nu tərk etdi**



**76 yaşlı yazar həbsxanada**



**Rusiyada onilliyin kitabını seçdilər**



**Nobelçi qadın yazarları tənqid etdi**

# Araz Elsəs: «Azadlıq ya var, ya yoxdur!»



**İsveçdə yaşayan Ozan Araz Elsəs 28 May—İstiqlal Günü şərəfinə Bakıda şadlıq saraylarının birində konsert verdi. Fürsəti yaxalayıb Araz bəyi AzadlıqRadiosunun «Can Bakı» proqramına qonaq çağırdıq. Araz Elsəslə söhbəti həm oxuya, həm də dinləyə bilərsiniz.**

**O ZAMAN DA GÖZƏL İDİ...**

*-Araz bəy, bir halda ki, Can Bakı— söylədiniz, lütfən yaddaşınızı qurdalayın. Bakının adını kimdən duydunuz və Bakını ilk dəfə nə vaxt gördünüz?*

- Bakının adını ilk dəfə Güney Azərbaycanda olanda duydum. Bakı öncə röyalarımda, xəyallarımda olub. Xəyalımda bir Bakı qurdum, böyüdüm, başa çatdım, gənc yaşlarında Bakıya gəldim. 1992-ci il idi. İndiki halıyla müqayisədə çox fərq vardı. Amma o zaman da gözəl idi Bakı, indi də. Gələcəkdə daha gözəl.

*- Nədən Bakıda həmişəlik qalmadınız?*

-Aradabir qaçaraq gedib-gəlirdim Sulduza. Amma orada qala bilməzdim. Yaşamaq mümkün deyildi. Mən Bakını buraxmadım. Zaman, dövran sanki sıyırdı əllərimi. Əllərimin yeri qaldı Bakıda, Azərbaycanda. Getməyə məcbur oldum. Pasportum yox, işim yox... Bakıda yaşamaq çətin... Siyasi problemlər də var idi. O vaxt arıq gənc idim. Amma bir ruhum var idi, o, məni yaşadırdı. İndi düşünəndə ən gözəl xatirələrim Bakı ilə bağlıdır.

**HƏR YERƏ UÇURAM, DOĞULDUĞUM ŞƏHƏRDƏN BAŞQA...**

-- İstədiyim yerə uçub gedə bilirəm - öz doğulduğum yerdən başqa... Rahatam. Amma ora Vətən deyil! O gün konsertdə mənə Təbriz torpağı verdilər, qoxuladım. O, mənim doğma torpağımdır. Elə Bakı da...

**AZADLIQ YA VAR, YA YOXDUR!**

- Azadlığı sevməyən insan deyil. Azadlıq bir gerçəkdir, bir haqdır. Azadlığın qarşısına çıxanlara yazıqlar olsun. Bu millət azadlığa layiq millətdir. Güneyli-quzeyli yüzdə-yüz haqqına çatacaq. Hər şey yüzdə-yüz olmalıdır. Sevgi də belədir. Ya var, ya yoxdur! Dünyanın bir çox ölkələrində azadlıq yoxdur. Amma insanlar ona can atır. Biz də can atmalıyıq. Çünki azadlıq boşuna verilmir. Yetər ki, yorulmadan-usanmadan gedəsən. Bunu mən Güney Azərbaycan türkü olaraq deyirəm. Oradan döndüyümdə, çayı keçdiyimdə mənim mahnılarımı heç kimsə bilməzdi. Amma indi yüz minlər bağırır ki, «Haray-haray, mən türkəm!», «Azərbaycan var olsun--bir olsun!». Bu, gerçəkdir, haqdır, zaman –zaman yerini tapacaq.

**• Diaspor təşkilatları Araz Elsəsi niyə xatırlamırlar, nədən tədbirlərinə çağırmırlar?**
**• Araz bəy türk mediasından niyə gileyləndi?**
**• Araz Elsəsin diskləri Azərbaycanda niyə satışda yoxdur?**
**• Araz bəy niyə özünü Ginnesin Rekordlar Kitabına namizəd saydı?**
**• Araz Elsəs «Azərbaycanda demokratiyanın inkişafına hansı töhfələriniz var», -deyə soruşan dinləyiciyə nə cavab verdi?**
**• Araz bəy «Can Bakı» proqramında niyə canlı oxumadı?**

«Can Bakı»nı dinləsəniz, həm Ozan Arazın azadlıqsevər mahnılarını eşidəcəksiniz, həm də söhbətlərini...

***Sevda İsmayıllı***

# Qarabağ əlillərini incidirlər

**«Qarabağ Qaziləri» İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri Rey Kərimoğlu və «Bakı Müharibə Əlil və Veteranları» İctimai Birliyinin sədri Fuad Rzayev Qarabağ müharibəsi əlillərinə son illər dövlət dəstəyindən danışırlar.**

Fuad Rzayev:

- «Xəstələri xəstəxanalar götürmür. Dava-qırğınla harasa qəbul etdiririk. Qarabağ əlili adı gələndə, başda baş həkimlər olmaqla, həkimlər, tibb bacıları sir-sifətlərini elə turşudur ki, bu təbəqə pulsuz təbəqədir, bu, pul verə bilməyəcək, dərmanlarını ala bilməyəcək. Hər dəfə bir əlili xəstəxanaya qəbul etdirmək üçün kiminsə qapısında dayanmalıyıq, xahiş-minnət etməliyik. 2 il bundan əvvəl Şüvəlandan Gülbala adında birinci qrup Qarabağ əlili var idi. İki ayağı da işləmirdi. Ayaqları işləmədiyi üçün qan dövranı yox idi, dabanları çirklənmə verməyə başlamışdı. Biz onu İrana göndərdik, öz hesabımıza müalicə olundu, bir az yaxşılaşdı. Onun onurğasını güllə zədələdiyi üçün sonra arxa tərəfdən onurğasında çirklənmə başladı. Ağır vəziyyətdə biz onu apardıq, birtəhər Travmatologiya İnstitutuna qəbul etdirdik. Həkim dedi ki, bunu niyə gətirmisiniz, onsuz da ölüb gedəcək.

Xəstə 3 gün orada qaldı, 3 gündən sonra çıxardılar ki, aparın, onsuz da ölür. Biz orada olmayanda qardaşlarını aldadıblar, razılığını alıb, qol çəkdiriblər. Aparıblar evə. 2 saatdan sonra ölüb...».

Rey Kərimoğlu:

- «2001-ci ildə biz statistikanı aparmışdıq. O vaxt 40-a yaxın Qarabağ əlili intihar etmiş, ya da müalicəsizlikdən



Özünü öldürənlər çoxdur

dünyasını dəyişmişdi. 1996-cı il may ayının 10-da bir Qarabağ əlili özünü alça ağacından asmışdı. Kağız yazıb qoymuşdu ki, mən nə qədər çörək dükanına borclu qalacam? Özünü öldürənlər çoxdur. Çox təəssüflər olsun ki, İlham Əliyevin məsələyə münasibəti adekvat deyil».

***Xədicə İsmayılova, Kamran Mahmudov***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



## Aksiya - kilsənin içində seks



Olayın videosundan bir an

*Onlar gözlərinə inana bilmirdilər. Oslonun Baş kilsəsinə toplaşanlar müqəddəs "Kristi himmelfart" (İsanın səmaya yüksəlməsi) günündə dua etmək istəyirdilər. Lakin gözlənilmədən 2 çılpaq gənc kilsəyə girərək düz minbərin altında sekslə məşğul olmağa başladı. Kilsə əməkdaşları onları az qala zorla bir-birindən ayırırdılar. Bu zaman daha bir çılpaq kişi kilsəyə girir. Kilsədən kənara çıxarılan gəncləri polis həbs edir.*

Bu gənclər Norveçdə müxtəlif kütləvi tədbirləri pozmaqla tanınırlar. Onlar hamının gözü qarşısında cinsi əlaqəyə girir, bu yolla, özlərinin dediyinə görə, meşələrin qırılmasına etiraz edirlər. Meşələrlə seksin nə əlaqəsi? Deyirlər ki, adamların diqqətini problemə cəlb etmək istəyirlər. Əlavə ediblər ki, cinsi əlaqə həqiqi deyil, sadəcə, imitasiyadır. Bu haqda xəbər verən Dagbladet.no yazır ki, polis gəncləri cərimə edib. Qızla-oğlanı – hərəsi 7500 NOK (1100 manat), aksiyanın 3-cü iştirakçısını isə 6000 NOK (880 manat).

Oslo polisinin nümayəndəsi deyir ki, baş verən adi qanun pozuntusu deyil, olduqca ciddi hadisədir. Onun sözlərinə görə, gənclərin müqəddəs gündə, kilsənin içində törətdikləri onların nə dərəcədə həyasız olduqlarını göstərir.

**Olayın videosunu AzadliqRadiosu.az-da izləyə bilərsiz.**

## Sarışınların paradı



Mayın 31-də Belarusda Beynəlxalq Sarışın Günü qeyd edilib. Paytaxt Minskdə sarışın xanımların paradı keçirilib. Parad iştirakçıları şəhərin mərkəzi küçələrində avtomobillə keçərək insanlarla görüşüblər.



# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra**
**Can Bakı**
**Xüsusi reportaj**
**Qaynar xətt**
**Həmyerli**
**Tanınmışlar**
**Şəffaflıq**
**14-24**
**İz**
**Panorama**
**Qafqaz Qovşağı**
**Oxu zalı**
**Hər kəsin haqqı var**
**Təbriz Ekspress**

## Daimi rubrikalar




# "Simsiz teleqraf"

## ŞKAFLAR AVTOBUS GÖZLƏYİRLƏR



31.05.2011. Yükləyib: Zaur

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**24 saat**

HotBird 13$^0$E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

TÜRKSAT 42$^0$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu Video/Foto

# "Multimedia"




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | 08$^{00}$-10$^{00}$ |
| Günorta proqramı | 12$^{00}$-13$^{00}$ |
| Təkrarlar | 15$^{00}$-16$^{00}$ |
| İşdən sonra | 17$^{00}$-19$^{00}$ |
| Kontekst | 20$^{00}$-21$^{00}$ |
| Gecə proqramı | 22$^{00}$-24$^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz